# MÜASİR DÖVRDƏ KİTABXANA VEB SAYTLARINA VERİLƏN TƏLƏBLƏR

**Ləman Eyyubova**

*BDU, Biblioqrafiyaşünaslıq kafedrasının magistrantı*

Müasir dövrdə cəmiyyətin inkişafında kitabxanaların sosial rolu günü-gündən artmaqdadır. Buna görə də kitabxanalar tələbatçılar üçün başlıca axtarış və informasiya mənbəyi olaraq qalmaqdadır. XXI əsrin əvvəllərindən başlayaraq cəmiyyətin sürətlə inkişaf etməsi, informasiya-kommmunikasiya texnologiyalarının cəmiyyət həyatına nüfuzu, kitabxanaların yeni informasiya texnologiyalarından, kompüterləşmiş iş vasitələrindən, durmadan artan informasiya ötürücülərindən, operativ kommunikasiya şəbəkələrindən maksimal səviyyədə istifadəsinə şərait yaratdı.

Ənənəvi kitabxanaların inkişaf perspektivlərini müasir kitabxanaların iş prinsipləri ilə müqayisə etdikdə məlum olur ki, əvvəllər kitabxanalar yalnız sənəd kütləsinin toplandığı yer kimi xarakterizə olunurdu. İndi isə kitabxanaların funksiyaları artmış, yeni istiqamətlər almışdır. Artıq müasir kitabxanaların iş meyarlarını səciyyələndirən amillərə müasir avtomatlaşdırma vasitələrindən istifadə kimi proseslər daxil olmuşdur. Öz oxucularına təyinatına görə xidmət edən kitabxanalar artıq müasir dövrdə öz xidmət sferasını genişləndirərək zaman və məkan maneələrini aradan aldıraraq virtual şəkildə xidmətə keçid etmişdir. Buna görə də artıq kitabxanalarda ənənəvi kitabxana fondları ilə paralel şəkildə elektron kitabxanaların, biblioqrafik verilənlər bazalarının, elektron məlumat bazalarının, elektron kataloqların yaradılması prosesi dönməz xarakter almış və bu ümumbəşəri bir prosesə çevrilmişdir. Yaradılmış məlumat bazalarından istifadə və ya birbaşa keçid üçün veb saytların yaradılması bir zərurətə çevrilmişdir. Bəs sayt nədir? Veb sayt - ən azı bir serverdə yerləşdirilmiş faylların bir-biri ilə əlaqələndirilməsindən yaradılmış qovluqdur. Saytlara internet şəbəkəsi vasitəsilə baxmaq imkanı yaradılır və beləliklə infofrmasiya yayımı qat-qat asanlaşdırılmış olur. Saytlarda əvvəlcədən müəyyən datalar - verilənlər bazası toplanır və rahatlıqla istifadəçinin əlçatarlığı və əlyetərliyi təmin olunur. Hazırda saytlar informasiya mübadiləsində yeni, eyni zamanda əvəzolunmaz texnologiyaya

çevrilmişdir.

Dövrün tələblərinə uyğun olaraq, ayrı-ayrı kitabxanalar, informasiya mərkəzləri, dünyaca məşhur nəşriyyatlar öz fondunun təbliğində və piarında veb saytlardan geniş şəkildə istifadə edir. Bunun üçün daim interaktiv şəkildə fəaliyyət göstərən saytlar müəyyən bir meyara uyğun hazırlanmalı və bir sıra tələblərə cavab verməlidir. Burada əsas faktor saytın naviqasiya imkanlarının genişliyi, informasiyanın logistikasına uyğunluğu, operativlik, axtarış imkanları, rahat istifadəçi interfeysinə malik olması, profesionallığı, dolğunluğu, dəqiqliyi, fasiləsizliyidir. Azərbaycan kitabxana təcrübəsində böyük oxucu kütləsinə xidmət edən müxtəlif təyinatlı kitabxanaların demək olar ki, əksəriyyətinin elektron kitabxanası və elektron kataloqu mövcuddur. Azərbaycan Milli kitabxanası həm zəngin elektron kitabxanaya, həm də müxtəlif axtarış üsullarından istifadə edərək axtarışı həyata keçirən elektron operativ kataloqa malikdir. Bununla yanaşı, kitabxana biblioqrafik sorğu, virtual sərgi xidmətlərini də həyata keçirir.

Bütün dünyada COVİD-19 koronavirus infeksiyasının mövcud olması, insanların daha çox elektron kitabxanalara üz tutmasına səbəb oldu. Buna görə də kitabxana saytlarının mövcud tələblərə cavab verməsi vacibdir.